# “QARABAĞ ŞEİRİMİZDƏ, NƏSRİMİZDƏ”

## *Ədəbi tənqid müstəvisində*



*Əkbər ƏLİYEV (ƏLİOĞLU)*
***filologiya üzrə fəlsəfə doktoru***

Bəzən yazıblar ki, tarix elmi müharibələrin müxtəlif zaman kəsiklərində imperiya və elitar dövlətlərin nail ola bilmədiklərinin döyüş yolu ilə həlli tarixidir. Müharibə şəraitində SÖZ döyüşünün də aparıcı mövqedə olduğu ideoloji, siyasi, iqtisadi, sosial və ədəbi-bədii konturlarda əsrlərdən bəri təsdiqini tapmış təkzibolunmaz bir aksiomadır. Azərbaycan-Ermənistan, Rusiya-Çeçenistan, Rusiya-Ukrayna, İran-İraq, İsrail-Fələstin, İran-İsrail müharibələri və s. fikrimizə canlı misaldır. Bu müharibələrin törətdiyi fəlakətlər isə yüzlərlə cild kitablara sığmazdır. Bu baxımdan müharibədən qalib çıxmaq üçün söz adamlarının da “müsəlləh əsgərə” dönməsi əsgərlərin döyüş əzminin artımına, milli ruhun qorunmasına, Vətənə məhəbbət ovqatının, qeyrət, namus hisslərinin oyanışı və coşqunluğuna xidmət edib. Bu isə geniş mənada xalqın, dövlətçiliyin qan-gen yaddaşının qoruması, tə zələnməsi və inkişafına səbəb olur. Azərbaycan xalqı II dünya müharibəsində, eləcə də Qarabağ savaşı olaylarında bu missiyanı yaşadı və doğrultdu.

Böyük Vətən müharibəsi adlandırdığımız müharibədə söz ordumuz “böyük qardaşımızın” söz cəbhəsinə qoşuldu, ona arxa durdu. Bu arxalıq akademik Bəkir Nəbiyevin “Azərbaycan ədəbiyyatı Böyük Vətən müharibəsi illərində” kitabı ilə öz tarixi, elmi dəyərini qazandı. Qarabağ savaşı olaylarının ədəbi-bədii söz salnaməsi isə “ədəbi tənqid tariximizin qızıl onluğuna daxil olan” (prof. Elçin İskəndərzadə), filologiya elmləri doktoru, ədəbiyyatımızın işıq axtaranı Vaqif Yusifli tərəfindən gerçəkləşdirildi; “Qarabağ şeirimizdə, nəsrimizdə” (Bakı, “Vektor” nəşrlər evi, 2025) kitabı ilə. Məhsuldar yaradıcılıq yolu keçməsi, ədəbi-bədii və elmi erudisiyası, ədəbi-tənqidi təfəkkürünün mükəmməliyi otuz illik Qarabağ müharibəsi dövrünün bədii məhsullarını sistemləşdirib ümumiləşdirməyə ona uğurlu şans qazandırdı. AYB üzvlərinin sayını, eləcə də regionlarda yaşayan yazarları düşünəndə görünən işin ağırlığı və dəyəri gözümüz önündə daha da böyüyür. Nəzərə almalıyıq ki, vətən, xalq taleyinə özünü məsuliyyətli bilən, Qarabağ olaylarının ağrı-acısını yaşayan, qələbə sevincini qürurla qarşılayan hər bir yazar qələmə sarıldı. Kim nə yazdı, necə yazdı, hansı bədii mükəmməllikdə, yaxud əskikliklə ifadə etdi? - bunu ümumiləşdirmək, həqiqətən uzun zaman və böyük zəhmət, ədalət hissi tələb edir. Bu baxımdan Vaqif Yusifli əsasən görkəmli, tanınmış yazarların işinə müraciət etmiş, insafla desək, cavan, gənc yazarların da nümunəvi əsərlərinin adını çəkmiş, bədii təhlilə cəlb etmiş və kristal münasibət sərgilənmiş, eyni zamanda müəyyən məqamlarda tənqidi mühakiməyə də yer ayırmışdır.

Kitab professor Elçin İsgəndərzadənin “Bu, Vaqif Yusifli ürəyidir” adlı ön sözlə açılır. Burada kitabın məzmun-mündəricə cəhətləri barədə məlumat verilir, müəlliflə bağlı isti münasibətlər yada salınır, əsərlərinə istinad olunan şair və yazıçıların adları sıralanır, Vaqifin son 30 ildə fədakarlıq və fədailiklə ötən fəaliyyətinə subyektiv fikir ifadə edilir.

...Sonra əsas bölmə - “Müasir Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu (poeziya)” təqdim olunub. Bu bölmədə müəllif 27 şairin Qarabağ savaşı mövzusunda yazdıqları şeir və poemaları təhlilə cəlb etmiş, konkret nümunələr əsasında olayın ümumi mənzərəsini göstərməklə gəldiyi qənaətlərin sistemli mahiyyətini şərh etmişdir. O, əsas və geniş təhlillərini adları xalqın yaddaşına yazılmış şairlərimizin - B.Vahabzadə, M.Araz, X.R.Ulutürk, Z.Yaqub, C.Novruz, Qabilin şeir və poemaları üzərində köklənmiş, Məmməd Aslan, Ə.Veysəlli, Ə.Quluzadə, Ə.Mədətoğlu, R.Nəbioğlu, Ə.R.Xələfli, A.Şirin, Ə.Əhməd, E.Piri, A.Cəmil və b. kimi tanınmış şairlərin yaradıcılığına istinad etmişdir. Bununla yanaşı o, ilk öncə ədəbiyyatımızda Qarabağ mövzusunun ötən əsrlərə gedib çıxan dövrünə yığcam olaraq ekskursiya etmişdir. Eləcə də 1941-1945-ci illər müharibə mövzusu ilə paralelliklər aparmış, Qarabağ savaşının ondan fərqli nüanslarını açıqlamışdır.

V.Yusifli çox doğru olaraq qeyd edir ki, ötən beş illik müharibədə poeziyamız “Bilsin ana torpaq, eşitsin Vətən” çağırışına kökləndi. Qarabağ olayında poeziya da döyüşçü paltarı geyməliydi”. İlk çağırış edildi. X.R.Ulutürk “Qalx ayağa Azərbaycan!”, M.Araz isə “Ayağa dur, Azərbaycan!” nidasıyla “Azərbaycan poeziyasının məramını ifadə etdi”. Bu çağırışlara müəllif şərhi durüst və qətidir: “Məsələ orasında deyil ki, xalqın çətin anında heç bir Azərbaycan şairi öz yaxasını kənarda çəkməmişdir, hər şair ilhamı qədərincə bu çağırışa qoşulmuşdur. Məsələ orasındadır ki, xalq belə bir çətin anda daha çox sevdiyi şairlərdən umurdu, onların səsini, çağırışını eşitmək istəyirdi. Belə şairlərdən biri də Zəlimxan Yaqub idi. Onun “Dur ayağa, məmləkətim!” şeirini Məmməd Arazın şeiri ilə müqayisə etsək, burada bir təfərrüat genişliyi ilə üzləşərik. İlk kiçik miqyaslı həmlələr; tələfat, yandırılan kəndlər, maddi abidələrin dağıdılması, ekoloji tarazlığa vurulan ziyanlar, daxili çəkişmələr, problemin beynəlxalq müstəviyə çıxarılması bu çağırışları, səfərbərlik əhval-ruhiyyəsini kədərli bir ovqat əvəz etdi”. Müəllif fikrinə davam edərək yazır: “Azərbaycan poeziyası Atəşkəsdən sonrakı dövrdə iki əsas mövzuya daha çox diqqət yetirmişdir: 1. Müharibənin doğurduğu ağrılara, üzüntülərə və bunun müxtəlif adamlarda doğurduğu psixoloji məqamlara münasibət diqqət mərkəzinə çəkilir. Eyni zamanda həmin müharibənin, çözülməz hala gətirilmiş Qarabağ probleminin əsas günahkarları ittiham edilir. 2. Çıxış yolu nədədir? - bu suala Poeziyada cavab axtarır.

Atəşkəsdən sonra poeziyada itkilərlə bağlı sorğular başlandı, müvəqqəti məğlubiyyətin səbəbləri araşdırıldı, “kimdir günahkar?” sualı qoyuldu. Əlbəttə, poeziya siyasət deyil, lakin siyasətdən fərqli olaraq poeziyada məsələyə birmənalı münasibət bəslənilir. Bu münasibət dəyirmi stollarda, beynəlxalq müşavirələrdə həll olunmur, xalq arasında formalaşır, onun ürəyindən keçib gəlir. Bu baxımdan İsa İsmayılzadənin “Haran ağrıyır, Vətən?” poeması çox səciyyəvidir:

Özü boyda göz yaşıdır Qarabağ,
Dərdimizin başdaşıdı Qarabağ.

Vaqif Yusiflinin qeyd-şərtsiz bu qənaətləri yuxarıda qeyd etdiyimiz kimi, şairlərin yaradıcılığından gətirilən sitatlarda, bədii nümunələrdə min bir poetik çalarla öz təsdiqini tapır, həm də əksər nümunələr geniş təhlilə cəlb edilərək bədii sənətkarlığın kriteriyaları, poetikanın tələbləri, fikrin metaforik təbiətinin çəkisi nöqteyi-nəzərdən, düşüncədə, əməldə intibah yaratmaq baxımından öz həqiqi dəyərlərini alıblar. Bu baxımdan müəllif seçimi təqdirəlayiqdir. Seçilən ədəbi nümunələr, müəllif şərhləri məntiqi cəhətdən o qədər təsirli, klassik bir səpgidədirlər ki, onları mətnə daxil etməkdən çəkinmək istəmirsən, lakin qranit, sərt tələblər “olmaz!” - deyə qarşına sipər çəkir. Bununla belə yenə müəllif fikirlərinə üz tutmaq istəyi bizi tərk etmədi: “Bəs bu müharibədə qəhrəmanlıqla həlak olan igidlərimizin obrazlarını yaratmaq necə? Bəs müharibə dövrünün əsas səbəbkarlarını ifşa etmək, baiskarları poeziyanın mühakiməsinə çıxarmaq necə? Bəs müharibə gedə-gedə ölkədə baş verən daxili çəkişmələri, xaosu hərcmərcliyi təsvir etmək lazım deyilmi? Bəs Atəşkəsdən sonra çoxlarının sönmüş ruhunu alovlandırmaq necə?” Qətiyyətlə və səmimiyyətlə, həm də dövrü yaşamış piran bir qoca kimi deyə bilərəm ki, seçilən nümunələrdə bunlar parlaq ifadəsini tapıb. Bu mənada, istedadlı şairlər Əli Rza Xələfli, Ətraf Sərraf poeziyasına, Gülxani Pənahın bədii nəsrinə də müraciət etmək olardı. Düşünürəm ki:

Haqsız meydan suladıqca əlimizdən haqq gedir,
Gözümüzdən arx açılır, çay gedir, bulaq gedir.
Qarış-qarış, parça parça yurd gedir, torpaq gedir,
Mən ki əsir olmamışdım, nədir bu əsarətim?
Dur ayağa məmləkətim, qalx ayağa millətim!
***(Z.Yaqub)***

- deyiminin emosional-psixoloji gücünü onların da yaradıcılığında görmək mümkündür.

“Müasir Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu”nun nəsr bölməsi polemik fikirlərin müəllif yozumu ilə başlayır. Və Qarabağ müharibəsi, bu müharibədə həlak olan igidlərimizin keçdiyi yol, müharibənin və heç şübhəsiz, döyüşçünün psixologiyası hərbi nəsrin aparıcı mövzusuna çevrilməmişdir. Bu mənada, “nəsr poeziyadan və publisistikadan çox geridə qalır” yazmaqla obyektiv fikrini bildirir, hansı ki, müharibə bizdən asılı olmayaraq hamımızın içində yaşayırdı. Müəllif bu faktı “müharibənin doğurduğu psixoloji təzadlar”, “müharibəyə müxtəlif insanların baxışı” və s. kimi paradiqmalarla bağlayır. “Bu gün Azərbaycanın özündə də Qarabağ müharibəsi barədə subyektiv təsəvvürlər yaşayır - həm əsl müharibəni, həm də qanlı bir oyunu xatırladan bu savaş çoxları üçün müəmmalıdır”. Bu fikir yazıçını düşünməyə, əsl mahiyyəti olduğu kimi qavramağa yönləndirə bilər. Və bu mənada, vaxt qazanmaq üçün gözləmə mövqeyində durur - nəticədə nəsr susur. Lakin ümumən xalq duyumu bunları dəqiqliklə izah edə bilirdi. Xalq arasında olan bir şəxs kimi bu dəqiqliyin gerçəkliyini qəbul edirdim. Fakta dövlət siyasətli münasibətlə sadə insanların münasibəti arasındakı cüzi əkslik də nəsrin yubanmasının səbəblərindən sayıla bilər. Bütün bu məsələlər barədəki ilkin şərhinə “amma bununla yanaşı bu mövzuda bir sıra nümunələr də yaranıb və başlanğıc üçün heç də pis deyil” - deyə yekun vurmaqla bir daha tarixi gerçəkliyə möhür vuran müəllif birbaşa Aqil Abbas, Elçin Hüseynbəyli, Hüseynbala Mirələmov, Elçin, Nüşabə Məmmədli, Sevinc Nuruqızı, Kamil Əfsəroğlu kimi tanınmış yazıçıların hekayə, povest və romanlarını yeni şəkildə ədəbi təhlilə cəlb edir. Onun tutumlu təhlilləri poeziya bölümündə olduğu kimi professional nəzəri və praktik ədəbi tənqidçiliyin qəbul edilən nümunələri misalındadır. Təbii ki, müəllifin fərdi elmi üslubundakı bu komponentlər eyni zamanda özündə fundamental, klassik tədqiqatın yaddaqalan elementləri kimi təqdirəlayiqdir.

Xatırladaq ki, bu bölmədə müəllif daha çox H.Mirələmovun romanları (“Dağlarda atılan güllə”, “Güllələmiş heykəllərin fəryadı”), Elçinin “Qarabağ şikəstəsi”, “Bayraqdar” və Kamil Əfsəroğlunun “Çadır” əsərləri daha geniş təhlilə cəlb olunmuşdur.

***(Davamı var)***